# Böyük qayıdışa dair proqramın icrası ilə bağlı monitorinqlərin nəticələri müzakirə olunub



**Mayın 15-17-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatının rəhbəri Rüfət Məmmədovun rəhbərliyi ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı 2023-cü ildə və 2024-cü ilin 4 ayı ərzində aparılan monitorinqlərin nəticələrinə dair müşavirə keçirilib.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, Nazirlər Kabinetində keçirilən müşavirədə Dövlət proqramının icrası ilə bağlı aidiyyəti dövlət qurumlarının rəhbərlərinin müavinləri və digər məsul şəxslər iştirak ediblər.

Tədbirdə 2023-cü il və cari ilin 4 ayı üzrə monitorinq hesabatları təqdim olunub, təkliflər dinlənilib və Dövlət proqramının növbəti mərhələdə qarşıda duran vəzifələrinin icrasına dair müzakirələr aparılıb.

Müzakirələr zamanı müşahidə olunan əsas çətinliklər və növbəti müddətdə diqqət yetirilməli istiqamətlər vurğulanıb, Dövlət proqramının icrası müddətində həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr, aparılan quruculuq işlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsini, əhalinin dayanıqlı məskunlaşmasını təmin edəcəyi qeyd olunub.

Müşavirədə, həmçinin Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli 942s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2024-2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı"nın icrası ilə əlaqədar əhalinin qayıdış ardıcıllığı nəzərə alınmaqla məşğulluq imkanlarının qiymətləndirilməsi, vakansiyalar üzrə işin aparılması, peşə təhsilinin və hazırlığının təşkili, ictimai işlərə və özünüməşğulluq proqramına cəlb edilməsi və digər bu kimi aktiv proqramların dəstəklənməsi istiqamətində işlərin icrasının gedişi barədə də müzakirələr aparılıb.

Dövlət proqramının icrasına nəzarət işlərinin operativ və dayanıqlı həlli üçün aidiyyəti dövlət qurumlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

Azərbaycan.- 2024.-18 may, № 103.- S.11.